**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN**

# F Ə R M A N I

**Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliklərində publik hüquqi şəxslərin yaradılması barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılsın:

1.1. Naxçıvan Muxtar Respublikası Hərracların Təşkili üzrə Auksion Mərkəzinin əsasında “Hərracların Təşkili Mərkəzi”;

1.2. “Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri”.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan “Yerquruluşu, Geodeziya və Kartoqrafiya” Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək “Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti adlandırılsın və bu Fərmanın 1.2-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxsin tabeliyinə verilsin.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində “Sertifikatlaşdırma və Metrologiya Mərkəzi” publik hüquqi şəxs yaradılsın.

4. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv edilsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

5.1. Bu Fərmanın 4-cü hissəsi ilə ləğv edilən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin əmlakı və ştat vahidlərinin həyata keçirdiyi funksiyalar nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sərəncamına verilməsini təmin etsin;

5.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

5.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

5.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və icrası barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

7. Müəyyən edilsin ki, bu Fərmanın 1.1-ci, 1.2-ci bəndlərində və 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin yenidən təşkili və ləğvi ilə bağlı təsisçinin səlahiyyətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş digər səlahiyyətlərin həyata keçirilməsi isə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə həvalə edilir.

8. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

8.1. yanında yaradılan dövlət xidmətlərinin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə etdikləri vəsait hesabına Nazirliyin maddi-texniki bazasının yaxşılaşdırılması və işçilərinin sosial müdafiəsinin gücləndirilməsi üçün tədbirlər görsün;

8.2. Bu Fərmanın 1.1-ci, 1.2-ci bəndlərində və 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələri təsdiq edildiyi gündən 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada onların dövlət qeydiyyatına alınmasını təmin etsin;

8.3. bu Fərmanla bağlı müvafiq təhvil-təslim işlərinin həyata keçirilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin;

8.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini:** **ANAR İBRAHİMOV**

Naxçıvan şəhəri, 09 fevral 2024-cü il
№ 229-VI FR